**BMT Baş katibinin müavini: Bəşəriyyətimiz hərəkətsizliyə və iqlimə görə fəlakətin astanasındadır**

Bəşəriyyətimiz hərəkətsizliyə və iqlimə görə fəlakətin astanasındadır. Planetin xilası geosiyasi parçalanmanın girovuna çevrilməməlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər BMT Baş katibinin müavini, təşkilatın Sivilizasiyalar Alyansının Ali Nümayəndəsi Migel Anxel Moratinosun "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda keçirilən Yüksək Səviyyəli 29-cu Toplantı iştirakçılarına videomüraciətində yer alıb.

Migel Anxel Moratinos qeyd edib: "Unutmayaq ki, problemin həlli təkcə iqlimə deyil, iqtisadi rifaha və davamlı inkişafa da kömək etmək imkanı yaradır. İqlim dəyişikliklərini həll etmək planeti və həssas insanları qorumaq deməkdir".

**AZƏRTAC**
**2024, 19 iyun**